# GERÇƏKÇİLİYİN İMPROVİZƏLƏRİ...

*Əməkdar rəssam Teymur Rzayevin yaradıcılığı haqqında*



**Ziyadxan Əliyev**
*Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru*

Çağdaş Azərbaycan təsviri sənətində elə yaradıcılar var ki, onların adı belə onu eşidənlərdə xoş əhval-ruhiyyə yaradır. Belə müsbət ovqat yaradıcılarından biri respublikanın əməkdar rəssamı Teymur Rzayevdir. Müstəqilliyin ilk illərindən başlayaraq onun qardaş Türkiyədə fəaliyyət göstərməsi əslində onun bir sənətkar kimi hər iki ölkədə kifayət qədər tanınmasını şərtləndirmişdir. Ötən illər ərzində Azərbaycan təsviri sənətinin zəngin tarixə malik şöhrətini dost ölkədə yaya bilməsini də onun bir qərinəyə yaxın yaradıcılığının ən böyük qazancı saymaq olar. Bu gün tanınmış fırça ustasının Türkiyədə yaşayıb-yaradan çoxsaylı azərbaycanlı rəssam və heykəltəraşın əlaqələndiricisi vəzifəsini daşıması həm də Teymur Rzayevə Türkiyə-Azərbaycan mədəni əlaqələrinin genişləndirməsi istiqamətində səmərəli fəaliyyət göstərməsinə səbəb olmuşdur...

Məlumat üçün bildirək ki, o, ixtisas təhsilini əvvəlcə məşhur "Əzimzadə məktəbi"ndə (1975-1979), sonra isə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (1982-1988) almışdır. Ali təhsil ocağında görkəmli fırça ustası Mikayıl Abdullayevdən dərs alması onun həyatında dərin iz buraxmış, gələcəkdə onu gözləyən çətin və sınaqlarla dolu yaradıcılıq yolunun necəliyini - həyata baxışın estetik tutumunu müəyyənləşdirmişdir, desək, həqiqəti söyləmiş olarıq.

Qənaətimizcə öz yaradıcılığında milli mənəvi qaynaqlara yaradıcı münasibəti ilə dəst-xəttini müəyyənləşdirən, gerçəkçi sənətin bədii-estetik və bədii-texniki imkanlarının nəhayətsizliyini nümayiş etdirməyə nail olan Mikayıl Abdullayev bütün zamanlarda sənətdə yeni addım atanlara nümunə ola bilər. Bu mənada onunla təması Allahın lütfü hesab etməkdə haqlı olan Teymur Rzayevin rəssamlığımızın çox nəhəng simalarından sayılmağa layiq olan ustadın sənətkarlıq dərslərini bu günə kimi unutmur. Hər dəfə qarşısındakı kətanla təmasını son yaxı ilə yekunlaşdıranda da ustadının realist-gerçəkçi sənət barəsində dilə gətirdiyi tövsiyə və nəsihətlərin həqiqiliyinə əmin olur. Özü də onu əhatə edənlərə gerçəkçi bədii yanaşmanın bu qədər improvizə imkanlarına malik olduğuna heyrətlənməkdən usanmır...

Doğrudan da Teymur Rzayevin janr əlvanlığı qabarıq duyulan yaradıcılığını təşkil edən hər bir əsərdə vurğuladığımız bədii improvizələrə şahidlik etmək mümkündür. Yaradıcı bədii gerçəkçilik bir çoxlarının düşündüyü kimi naturanın dəqiq-fotosayağı kətana köçürülməsi deyil. Sənət tarixində gördüklərinə belə yanaşanlar da olub. Bəlkə də zamanında bu onlara bir insan kimi maddi firavanlıq da gətirib, amma sənətlərinin əbədiliyinə və bəşəriliyinə kömək göstərməyib. Çünki, obyektə münasibətlərində "şəkil çəkmək"lik gördüklərinə yaradıcı münasibət göstərməyi üstələmişdi... Yaxşı haldır ki, Teymur Rzayevin gerçəkçiliyi də müəllimində olduğu kimi sırf yaradıcı xarakter daşıyır. Başqa sözlə desək, onun müxtəlif janrlı əsərlərində obyektlə kətan arasındakı məsafədə müəllifin gördüklərinə öz yaradıcı "mən"ini sərgiləməyə imkan verən "baxış bucağı" hiss olunur ki, onu da başqalarında müşahidə etmək mümkün deyildir. Bunu şərtləndirən başlıca səbəbsə kətanda görünənlərin rəssamın iç dünyasından, missiyasının daşıyıcısı olan ruhundan qaynaqlanan mənəvi-estetik dəyərin ifadəsi olmasıdır. Odur ki, belə bədii görüntülərdə gerçəkçilik şaşırdıcı bir tutumdadır...

Teymur Rzayevin müxtəlif illərdə yaratdığı portretlər obrazların insandırıcı və yaddaqalan bədii tutumuna görə xüsusilə diqqətçəkəndir. Cəmiyyətin müxtəlif təbəqələrinin təmsilçisi olan bu çeşidli xarakter daşıyıcılarının obrazlarında rəssam bir-birindən fərqli yaradıcı vəzifələri həll etməyə çalışmışdır, desək, yanılmarıq. Bu səbəbdən də onun dahi Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyara, Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkə, tanınmış rejissorlar Tofiq İsmayılov və Cahangir Zeynalova, filosof-dramaturq Mirzə Fətəli Axundzadəyə, məşhur türk hərbiçilərinə və digər şəxsiyyətlərə həsr etdiyi portretlər zamanının mənəvi-psixoloji yük daşıyıcıları kimi qəbul olunurlar. Əgər onun Şəhriyarın portreti üçün seçdiyi tünd və neytral fon obrazın nurlu çöhrəsinin cəlbediciliyinin qabardılmasına xidmət edirsə, rejissor Tofiq İsmayılovun oxşar koloritli yerliyə çoxsaylı kino lenti kadrlarının əlavə olunması həm də onun peşəsinə işarə kimi qəbul olunur.

Atatürkün sulu boya ilə çəkilmiş portretində rəssamın yağlı boya ilə ərsəyə gətirdiyi və yuxarıda adları çəkilən obrazlarından fərqli bədii yanaşma duyulur. Burada qabarıq görünən portretin bədii həllindəki duyulası şəffaflıq, üz cizgilərinin inandırıcılığı və onun forma-biçimindəki məqsədli natamamlıqdır. Bu bədii məziyyətlərin qovşağının yaratdığı cəlbedicilik və yaddaqalanlıq kifayət qədər duyğulandırıcıdır.Teymur Rzayevin oğluna həsr etdiyi "Rəsulun portreti" əsərində isə rəssam əvvəlki dəsti-xəttini, bir qədər yumşaq yaxı manerasını həndəsi formalı ifadə tərzi əvəzləyib. Əslində rəssam çoxları üçün gözlənilməz görünən bu cür şərti ifadə tərzi ilə özünün dünyaya fərqli baxış nümayiş etdirə bilmə imkanlarını da sərgiləyib. Rəssamın bu yanaşmasında da realizm ənənələrindən qaynaqlanan inandırıcılıq qabarıq olduğundan, onun bu səpkili əsərləri də xoş təsir bağışlayır.

Teymur Rzayevin natürmortlarında da realist-gerşəkçi baxışla, həndəsi formalı yaxılara üstünlük qoşadır. Müxtəlif gül-çiçəkləri və meyvələri əks etdirən natürmortlarında şərtilik nə qədər duyulan olsa da, belə məqsədli deformasiya şux və təravətli rəng çalarlarına bələndiyindən cəlbedici və yaddaqalandırlar. Kamançanı və narı özündə hifz edən "Əks olunma" əsərində isə əşyalara münasibət baxımından təsvir olunanları adi natürmort çərçivəsindən çıxaran rəssam bura görünənləri özündə əks etdirən güzgü əlavə etməklə tablonu fəlsəfi tutuma bələyə bilib. Onun şahmat lövhəsinin və fiqurlarının narla qoşalaşdırıldığı "Şahmat və nar" lövhəsində də tamaşaçını dialoqa cəlb edən məqamlar kifayət qədərdir.

Rəssamın "Qarabağ" tablosunda mövzunun açımı nə qədər çarti-mücərrəd görkəm alsa da, rənglərin duyulası təzadı qarşısına səpələnmiş rənbərəng həndəsi formalar Xeyirlə Şərin mübarizəsi və gələcəyə ümidlə baxışın rəmzi kimi qəbul olunur. Onun "Güləşçilər" tablosuna hakim kəsilən reallığın kökündə isə iki nəfərin qələbəyə köklənmiş mübarizəsinin gərginliyini göstərmək durur, desək, həqiqəti söyləmiş olarıq...

Teymur Rzayevin bu gün Türkiyədə gerçəkləşməkdə davam edən həyat və yaradıcılığı təkcə rənglərə bağlılıqla bitmir. İstanbula "İstək" fondunun qurucusu və prezidenti olan Bədrəddin Dalanın dəvəti ilə gələn rəssam hazırda bu şəhərdəki Yeddətəpə universitetində dosent vəzifəsində çalışır. Qənaətimizcə onun təşəbbüsü və yaxından iştirakı ilə bu ali təhsil ocağında yaradılmış "Rəsm studiyası" beynəlxalq miqyasda belə bərabəri olmayan çalışma məkanıdır. T.Rzayevin sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsini daşımasını da onun milli sənət qaynaqlarımızın tədqiqinə marağının ifadəsi saymaq olar.

Teymur Rzayevin 2013-cü ildə Rusiya Rəssamlıq Akademiyasının İ.İ.Şuvalov adına medalına, 2015-ci ildə isə Rusiya-Türkiyə mədəni əlaqələrinin genişləndirilməsində xidmətlərinə görə elə bu ali elmi-yaradıcılıq mərkəzinin xüsusi medalına layiq görülməsi isə onun bədii və ictimai fəaliyyətinə verilən yüksək qiymətdir. 2011-ci ildə onun ölkə prezidentinin sərəncamı ilə "Azərbaycan Respublikasının əməkdar rəssamı" fəxri adına layiq görülməsi də Teymur Rzayevin bütünlükdə səmərəli fəaliyyətinin dəyərləndirilməsinin göstəricisidir...



**Teymur Rzayev**



**Şəhriyarın portreti**



**Atatürk**



**Rejissor Tofiq İsmayılovun portreti**



**Oğlum Rəsulun portreti**



**Güləş**



**Harun Osmanoğlunun portreti**



**Rejissor Cahangir Novruzovun portreti**